**Mütləqimiz, Müqəddəsimiz, Ulu Peyğəmbərimiz Asif Ataya - İnam Ataya Ali Səcdəylə!**

*Asif Ata Ocağının özəl buraxılışı*
*13 Yağış ayı, 32-il (13.11.2010)*

# Ruhani Evladlıq-

## MÜQƏDDƏS ƏMƏL

### Övladlara

1.Müqəddəs Amal yarandı. Ata öz borcunu yerinə yetirdi.

Müqəddəs Əməl yaranmalıdır. Övlad öz Müqəddəs borcunu yerinə yetirməlidir.

2."Əməl" Kəlamı əsasında, kəlamın ruhuna və hərfinə Mütləq sədaqət əsasında Müqəddəs Ailələr yaranır. Evlad - Timsal yükünü, məsuliyyətini çiyninə götürür, Ata qarşısında cavabdeh olur.

3.Ardıcıl, inadlı şəkildə Atayla xalq arasında körpü yaradılır. Kəndlər, rayonlar, şəhərlər, paytaxt müqəddəs ideyalar zəmininə çevrilir.

Evlad İnam, İdrak, Mənəviyyat, İradə nümunəsi göstərir, Atanın Təmsilçisi müqəddəsliyinə xidmət edir.

4.Ardıcıl, İnadlı şəkildə Atayla dünya - SSRİ xalqları, Şərq, Qərb arasında körpü yaradılır.

Dünya Müqəddəs İdeyalar zəmininə çevrilir.

5.Atalıq Ruhaniyyatı öyrənilir, öyrədilir. Müqəddəs Təlim - "Yol" və "Mütləqilik" Kitablarıyla, "Ruhani Xətt", "Münasibətlər", "Təzadlar", "Rəmzlər" Kitabçalarıyla başlayır, "Mütləqləşmək - Var Olmaq" kitabıyla başa çatır.

6.Ataya Səcdə Müqəddəsliyi Mütləq Mənada həyata keçirilir.

Müqəddəs And, Müqəddəs müraciət, Müqəddəs qaydalar Mütləq mənada bərqərar olur.

7.Atalıqla bağlı nə baş verirsə - son hərfinə qədər yazılır, saxlanılır - Müqəddəs Sabaha çatdırılır.

8.Evlad Mütləqə çatmaq məqsədinə daim səy göstərir, özüylə döyüşür, Kamilləşir, Ülviləşir. Özünün Ruhani səviyyəsini Ata Tələbinə yüksəldir.

9.Müqəddəs İdeal aşağıdakı şəkildə səciyyələnir:

Mütləqə İnam.
İnsan Fəlsəfəsi.
Ruhani Cəmiyyət.
Müstəqil Xalq.
Ləyaqətli İnsan.
Ləyaqətli Şərq.
Ləyaqətli Bəşəriyyət.

10.Atalılar Müqəddəs Tarix və Müqəddəs Təqvim əsasında yaşayırlar.

Müqəddəs Əməl Çağıdır!
Ürəyiniz Qaranlıqları Yarsın!

**7-ci il, Xəzan Ayı. Bakı.**



**Mütləqə İnam Peyğəmbəri Asif Ata (İnam Ata)**